# "BilBacar" müsabiqəsinin qalibləri mükafatlandırılıb

## Firudin QURBANOV: "Təhsilin məqsədi şagirdləri savadlı, yaradıcı və kompetent cəmiyyət üzvü kimi yetişdirməkdir"









### Firudin QURBANOV

"İstedadlı şagirdlərin aşkar edilməsi və onların potensiallarının inkişaf etdirilməsi dövlətimizin hər zaman prioritet məsələlərindən biri olub. Bu istiqamətdə bölgələrdə yeni lisey və gimnaziyaların açılması nəzərdə tutulub.

Təhsilin məqsədi şagirdləri savadlı, yaradıcı və kompetent cəmiyyət üzvü kimi yetişdirməkdir... Biliklərin praktik tətbiqi şagirdlərə məlumatı sadəcə əzbərləmək deyil, həm də daha yaxşı anlamaq və yadda saxlamaq imkanı verir.

Azərbaycan şagirdləri beynəlxalq olimpiadalarda uğurlarını artırırlar. Son 10 il ərzində Azərbaycan məktəbliləri beynəlxalq fənn olimpiadalarında 35 qızıl, 147 gümüş və 336 bürünc medal olmaqla ümumilikdə 518 medal qazanıblar. Bu, olduqca böyük və qürurverici nəticədir.

"BilBacar" müsabiqəsinin əsas məqsədi də məhz budur: şagirdlərin yalnız bilik və bacarıqlarını deyil, həm də dəyərlər sistemini inkişaf etdirmək, gələcəyin vətəndaşını hərtərəfli formalaşdırmaq".

İyunun 17-də "BilBacar" müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Tədbir Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə baş tutub.

Mərasim Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov Elm və Təhsil Nazirliyi tərəfindən yaradıcı gənclərin istedadlarının üzə çıxarılması və inkişafı istiqamətində bir sıra layihələrin reallaşdırıldığını və bu layihələrin də əsas istiqamətini intellektual oyunların təşkil etdiyini diqqətə çatdırıb.

"BilBacar" müsabiqəsinin əhəmiyyətindən söz açan nazir müavini qeyd edib ki, biliklərin praktik tətbiqi şagirdlərə məlumatı sadəcə əzbərləmək deyil, daha yaxşı başa düşmək və yadda saxlamaq imkanı verir. Biliklər bacarıqların formalaşmasına zəmin yaradır, bacarıqlar isə vərdişlərin inkişafı üçün əsas vasitədir. Bu komponentlər bir-biri ilə qarşılıqlı əlaqədədir və bir-birini tamamlayaraq kompleks və dərin təhsil prosesini təmin edir. Lakin bu anlayışlar, eyni zamanda, dəyərlərlə tamamlanmalıdır. "BilBacar" müsabiqəsinin əsas məqsədi də məhz şagirdlərin yalnız bilik və bacarıqlarını deyil, həm də dəyərlər sistemini inkişaf etdirmək, gələcəyin vətəndaşını hərtərəfli formalaşdırmaqdır.

Daha sonra Təhsil İnstitutunun Qiymətləndirmə, Təhlil və Monitorinq Mərkəzinin direktoru İbrahim Baxışlı "BilBacar" layihəsinin nəticələri ilə bağlı təqdimatla çıxış edib.

Ardınca millət vəkili Ceyhun Məmmədov iştirakçıları təbrik edib. Ceyhun Məmmədov əlavə edib ki, gənclərin bilikli və bacarıqlı olması üçün onlara davamlı dəstəyin göstərilməsi vacibdir.

Tədbir çərçivəsində müsabiqənin təşkili və keçirilməsini əks etdirən videoçarx nümayiş olunub. Qalib məktəblərlə yanaşı, fərqlənən şagirdlər də mükafatlandırılıblar.

Mərasim şagirdlərin ifasında təqdim olunan musiqi nömrələri ilə yekunlaşıb.

Qeyd edək ki, 2024-cü ilin oktyabr ayında start verilən "BilBacar" müsabiqəsinin birinci mərhələsində respublikanın 2000-ə yaxın ümumi təhsil müəssisəsindən VIII, IX və X siniflər üzrə 170000-ə yaxın şagird iştirak edib.

Müsabiqənin əsas məqsədi şagirdlərin səriştə əsaslı tapşırıqlarla işləmə vərdişlərini inkişaf etdirmək, rəqəmsal platformada imtahan vermək bacarıqlarını formalaşdırmaq və xüsusi istedadlı şagirdlər ilə qabaqcıl məktəbləri müəyyənləşdirməkdir.

**Yetər KƏRİMLİ**